**UOT 821.512.162**

**Seyran QAYIBOV**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Mühəndislik Universiteti
**sqayibov@beu.edu.az**

# MƏHƏMMƏD HADİNİN ŞEİRLƏRİNDƏ CƏHALƏT VƏ SAVADSIZLIĞA QARŞI ÇAĞIRIŞ

**Açar sözlər:** Məhəmməd Hadi, şeir, cəhalət, elm, təhsil
**Keywords:** Mahammad Hadi, poet, ignorance, science, education
**Ключевые слова:** Мухамед Хади, стих, невежество, наука, образование

**Giriş**. XIX əsrin sonu – XX əsrin əvvəllərində müsəlman Şərqində olduğu kimi, Azərbaycanın da böhranlı vəziyyətdə olmasından, cəmiyyətin elm və sənayedə geri qalmasından narahat olan dövrün ziyalıları bu vəziyyətdən çıxış yolunu millətin təhsil almasında görür, hər vəsilə ilə insanların maariflənməsinin vacibliyindən danışır, davamlı məktəb, elm, maarif kimi istilahları dilə gətirir, insanlığın rıfahının yüksəlməsində təhsil və tərbiyənin əsas meyar olduğunu qeyd edirdilər. Bu ziyalılardan biri kimi Məhəmməd Hadi də öz şeirlərində insanların maariflənmədən, ətalət və zillətdən qurtula bilməyəcəyini yazırdı.

Məhəmməd Hadinin məşəqqətli həyat yaşadığı, bütün iztirablara rəğmən elm və irfandan ayrılmadığı, aldığı təxəllüsünün haqqını ödəmək üçün (“hadi” ərəbcə: doğru yol göstərən deməkdir) açdığı məktəbdə təhsilə həvəsi olan insanlara elm öyrətməyə başladığı mənbələrdə qeyd olunur [1, s.20].

Hadinin məktəbdarlıq fəaliyyəti qısamüddətli olsa da, ədəbiyyatımızda romantizm cərəyanının əsas nümayəndələrindən biri kimi tanınan bu şairin yaradıcılığında elm, məktəb, təlim-tərbiyə mövzularına kifayət qədər yer verildiyini görmək mümkündür. “Romantiklərə görə, maariflənmə millətin tərəqqisində birinci dərəcəli əhəmiyyətə malikdir. Bizim hər romantik yazıçının ictimai fəaliyyətində də, bədii axtarışlarında da maarif – insanlığın şəfa dərmanıdır” [4, s.153].

Cəhaləti insanlar, eləcə də cəmiyyət üçün dəhşətli bir hal olaraq görən Hadi şeirlərində öyrənməyin vacibliyindən, tədrisatın üsullarından və əldə olunacaq nəticələrin insana qazandıracağı ali mənfəətdən danışır.

Şairin yaşadığı dövrdə elm və təhsilə baxışın birmənalı olmadığını, dövrün maarifpərvər insanlarının bu yolda bir çox əngəllərlə qarşılaşdığını Azərbaycan pedaqoji fikir tarixindən, eləcə də ədəbiyyat tariximizdən bilirik. M.Ə.Sabirin, C.Məmmədquluzadənin və digər sənətkarların bu mövzuda yazdıqlarını xatırlamaq kifayətdir.

Hadi təhsilə, təhsil alanlara, eləcə də təhsildən uzaq qalanlara və biganələrə daha mülayim yanaşır. Onun üslubunda didaktizm hakimdir. Hadi şeirlərində alimlə cahili müqayisə edərək savadsızlığın insan üçün nə qədər böyük bir bəla olduğunu qeyd edir:

Olurmu elmpərvərlə bərabər cəhlpərvər? Heç!
Deyil dürri-ziyadarə müadil səngi-zülmani [3, s.26].

Və yaxud:

Maarif müflisi dünyadə, üqbadə siyəhrudur –
Ki: “əlfəqrü səvadül vəch” cəhlin oldu bührani [3, s.26].

Hadinin şerilərində Azərbaycan reallığı bütün açıqlığı ilə göstərilir, həyat olduğu kimi təsvir edilir. O, müraciət etdiyi cəmiyyətə öz dəyərləri ilə xitab edir. Cəmiyyətin 99 faizini müsəlmanların təşkil etdiyini nəzərə alan Hadi elm və təhsilin insanlıq üçün faydasını dini mənbələrə istinad edərək izah edir, yeri gəldikcə Qurani-Kərimdən və İslam peyğəmbərinin hədislərindən iqtibaslarla insanın təhsil almasının dini bir vəzifə olduğunu vurğulayır [1, s.24]. “M.Hadi yaradıcılığının ilk illərində bütün təkamül və tərəqqini məktəb, maarif və elmlə bağlayır, dini elmlərdən daha çox dünyəvi elmlərin öyrənilməsinə üstünlük verir, Qurana elm mənbəyi, İslam dininə bəşəriyyəti doğru yola istiqamətləndirən müqəddəs bir din kimi baxdığından və bu dinin əsaslarını mükəmməl şəkildə bildiyindən fikir və mülahizələrini də, əsasən, Qurana istinad etməklə şərh edirdi. Qeyd edək ki, bu cəhət təkcə M.Hadi yaradıcılığı üçün deyil, ümumən XX əsr Azərbaycan ziyalılarının əksəriyyəti, xüsusilə maarifçi və romantiklər üçün müştərək cəhət idi” [1, s.37].

“Tövheyi-təsviri-maarif” sərlövhəli şeirində “Beşikdən məzara qədər elm öyrəniniz” və “Elm Çində olsa da, onu alınız. Çünki elm öyrənmək hər müsəlmana fərzdir” hədislərinə müraciət edərək şair təhsilin müsəlmanlar üçün vacibliyini belə ifadə edir:

Beşikdən qəbrədək təhsil edək adabu irfani,
Əgər Çin ölkəsində olsa, cuyəndə olaq elmi [3, s.25].

Şeirin davamında şair Həzrət Məhəmmədə aid olduğunu qeyd etdiyi “Seyri-süluk aləmində cəhalət əhlinin Allahın qəhrinə düçar olduğunu gördüm” hədisi ilə savadsız insanların Allah nəzərində belə xoş üz görməyəcəyindən danışır:

Buyurmuş fəxri-aləm: “Elm bir nuri-ilahdır”,
Cəhalət isə bir zülmət, edər gümrah insani.
Demiş ol fəxri-kövneyn: “Aləmi seyri-sülukimdə
Cəhalət əhlini gördüm düçari-qəhri rəbbani” [3, s.26].

Hadi elm öyrənməyin cəmiyyətin hər bir fərdi üçün lazım olduğunu, hətta peyğəmbərlərin də zaman-zaman özlərinə müəllim axtararaq onlardan təlim aldıqlarını rəvayət və qissələrdən gətirdiyi nümunələrlə əsaslandırır:

Cənabi-Xızırda çün var idi elmi-lədünniyyat.
Ona şagird oldu, dinlə, gör Musayi-imranı.

Xızırvəş sən də olmaq istər isən arifi-məna,
Maarif çeşməsindən iç doyunca abi-heyvani [3, s.26].

“Ülumə talib olmaq fərzdir mərdanü nisvanə” deyən Hadi bütün insanların, xüsusilə qadınların təhsil almalarını daha çox arzu edir. Şairə görə, qadının təhsil alması millətin şəfa tapması, ruhuna dərman verilməsi mənasına gəlir:

Nə zaman kəsbi-ülum etsə nisa,
Cismi-millət tapacaq onda şəfa.
Elmlə ruha müdavat olunur,
Elmlə kəsbi-füyuzat olunur [3, s.39].

“Maarif kəsbi qılmaq bizlərə əmri-peyğəmbərdir” misrası ilə elmin müsəlmanlar üçün olan əhəmiyyətini bir daha xatırladan şair yaşadığı dövrdə İslam aləminin, əfsuslar olsun ki, buna əməl etmədiyini, “Elm ilə zəfərpərvər olub avropalı” misrası ilə əcnəbilərin təhsil və sənətdə qazandıqları nailiyyətlərlə dünyaya hakim olduqlarını, bizim isə hər şeydə olduğu kimi, elm və təhsildən də məhrum və ümidsiz olaraq yaşadığımızı dilə gətirir:

Əcanib qıldı hər bir karın itmam,
Biz isək əski tacdır, əski həmmam.
Nələr icad edir ərbabi-sənət,
Sənayelə qılır təhsili-sərvət.
Tutub sənətlə dünyanı əcanib,
Fəqət biz qalmışıq məhrum, xaib [3, s.24].

Hadi özünün din xadimi olmasına baxmayaraq, millətinin savadsız, təhsildən uzaq qalmasında cahil din xadimlərinin rolunun olduğunu da istisna etmir, zaman-zaman onlardan narazılıqlar edir, elmin yalnız dini məlumatlardan ibarət olduğunu sanan “alimləri” tənqid edir:

Dəyanət elminə kəsbi-qənaət eyləyən bədbəxt
Sənayepərvəran indində naqisdir, mühəqqərdir,
Otuz il elmi-ədyanə həyatın həsr edən “alim”
Həyat ərbabına düşmən olub mövtayə rəhbərdir [3, s.23].

Hadi insanları təhsildən uzaqlaşdıran, dini məlumatları, dini üsulları, fərzlərini belə düzgün izah etməyən, səhv və qərəzli yozumlarla elmin, təhsilin əleyhinə çalışan və insanları azdıran din xadimlərinə qarşı olan narazılıqlarını sərt bir üslubla dilə gətirir:

Əfəndim söyləyir minbərdə hər an:
“Bizə lazım deyildir elmi-əbdan.
Deyir: Üqba gərək, dünya fənadır,
Cahan islamə zindani-bəladır”.
Siz etdiz bizlərə dünyanı zindan,
Yıxılsın xanəniz, ey kəmşüuran! [3, s.25]

Şair “İnsan nə ilə mükərrəm olur?” sərlövhəli şeirində insanın mərifətlə, elmlə mələklərdən daha üstün və müşərrəf olacağını qeyd edir. “Yaşadığı dövrün siyasi, ictimai hadisələrinə aktiv münasibət bəsləyən bir sənətkar olan M.Hadi” coşqun bir ruhla, tam əminliklə izhar edir ki, insanın “mükərrəm” [hörmətli, möhtərəm, etibarlı) və ya “kəmtər” (aciz, zəif, etibarsız) olması onun özündən çox tərbiyəsi, mühiti və ona rəhbərlik edənlərdən asılıdır” [1, s.34].

Olursa mərifətpərvər-məlaikdən mükərrəmdir.
Yaşarsa aləmi-vəhşətdə-heyvandan da kəmtərdir [3, s.23].

İnsanın təhsil almasında, cəmiyyətin aydınlanmasında məktəblərin müstəsna xidməti olduğunu, millətin oyanması üçün təhsil ocaqlarına duyulan ehtiyacın həmişəkindən daha çox hiss edildiyini qeyd edən şair:

Ariflərə həmvarə bu söz virdi-zəbandır:
Əlməktəbü, əlməktəbü, ey millət, amandır [3, s.23] –

deyir.

Hadi məktəbə önəmli missiya yükləyir. "M.Hadiyə görə, milli intibah millətə məktəblər açmaqdan başlayır. Məktəblər açmağın zəruriliyini sanki o, məktəbin nə demək olduğuna verdiyi cavablarla əsaslandırır" [4, s.153]. Şairə görə, məktəb – "millət dəyərlərinə xidmət edən", "həqiqət nurunu yayan", "parlayan fikrə üfüqlər açan", "millətə can və səfa verən", "qəlbi ölmüşlərə ruh verən", insanı şərəfləndirən", "elm və fənn dənizi", "almaz və ləl mədəni", "ürfan gülşəni" və s. kimi mənəvi dəyərləri özündə birləşdirən müqəddəs bir ocaqdır. Hadi məktəbi "cəhalət qaranlığına doğan günəş" olaraq görür. "İrşad səadətinin rəhbəri" adlandırdığı məktəblərin sayının artması ilə millətin özünü dərk edəcəyini, elm və təhsillə məşğul olanların isə, şairin ifadəsi ilə, "kəndi hüququnu" biləcəyini, "hüquq əhlinin isə cahü cəlal" bulacağını deyir.

Cahilliyi millətin ən böyük xəstəliyi olaraq görən şair onun elm və təhsildən başqa bir əlacı olmadığını bu ifadələrlə bildirir:

Cəhalət bir mərəzdir, yox əlacı elmdən başqa,
Cəhalət şum bir bayquş, qılar viran imrani [3, s.26].

Şair cəmiyyətin aydınlanması və rifahının yüksəlməsində təhsilin sadəcə orta məktəb səviyyəsində deyil, yüksək səviyyədə öyrənilib-öyrədilməsi arzusundadır. Yüksək ixtisasa sahib kadrların hazırlanmasında "elm, maarif cəmiyyətlərinin təşkil olunmasına", "darülfünun", "məktəbi-ali"lərin yaradılmasına böyük ehtiyac olduğunu qeyd edən Hadi, eyni zamanda, təhsil ocaqlarının təşkilini məsələnin yalnız bir tərəfi olaraq qəbul edir. Bir pedaqoq kimi uşaqların məktəbə getməsini, məktəbi sevməsini işin əsas tərəfi olaraq görən Hadi insanlara "darülədəb"in, yəni məktəblərin qədir-qiymətini bilmələrini tövsiyə edir:

Məktəb nə demək? Rəhbəri-övladi-vətəndir,
İrşadına məzhər bulunan əhli-fətəndir,
Məktəb düri-adab ü kəmalatə ədəndir,
Atidəki söz bizlər üçün zibi-dəhəndir:
Darülədəbin bilməliyiz qədrini, millət.
Göstərməli ikmalına olduqca həmiyyət [3, s.21].

Məktəb sevgisinin aşılanmasında ailələrin, xüsusilə anaların mühüm rolu olduğunu qeyd edən şair valideynlərə:

Biədəb bəsləməyin tiflanı
Mərifətpərvər edin sibyanı [3, s.38] –

deyə çağırış edir.

Hadi bir müəllim kimi şagirdlərin oxumağını, elmi tövsiyə edərkən sadəcə təhsilin insanın fərdi keyfiyyətlərinin yüksəlməsi üçün faydalı bir davranış olması ilə bərabər ziyalılığın, eyni zamanda vətən adlanan məmləkətin də yüksəlişinə xidmət edəcəyinə inandığını ifadə edir:

A çocuk! Ey şərəfənduzi-kəmal!
Ey mələksiyrət, a lahutixisal!
Oxu, ey bülbüli-növxani-çəmən!
Sənin ilə edəcək fəxr vətən [3, s.31].

Nəticə olaraq qeyd edə bilərik ki, öz dövrünün bütün ziyalıları kimi, Hadi də XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin geridəqalmışlığının əsas səbəbini millətin təhsil səviyyəsinin aşağı olmasında, insanların bu və digər səbəbdən təhsildən yayınmasında görür. Elm və sənayedə qazandıqları nailiyyətlərlə bütün dünyaya hakim olan avropalıları nümunə göstərən şair İslam dininin və İslam peyğəmbərinin elm və təhsilə önəm verməsinə rəğmən müsəlmanların buna riayət etmədiklərinə işarət edir və bu məsələdə dini mövzuları düzgün izah etməyən din xadimlərini də günahlandırır. Təhsil ocaqlarının millətin dirçəlişində önəmli yeri olduğunu bildirən Hadi ümumtəhsil və ali məktəblərin sayının artırılmasının vacibliyini qeyd edir. Hadiyə görə, ziyalı insan və cəmiyyət öz hüquqlarını dərk edən, millətinin dəyərini yüksəldən və millətlərin imzasının içində öz millətinin də imzasının olmasını arzu edən və bu istiqamətdə çalışandır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Qəribli, İslam. Məhəmməd Hadi və mətbuat (1905-1920-ci illər). Bakı: “Nurlan”, 2011, 444 səh.
2. Qəribli İslam. “Cəhalət bir mərəzdir, yox əlacı elmdən başqa”,“Azərbaycan” jurnalı, 2010, №10, s. 184-187
3. Hadi, Məhəmməd. Seçilmiş əsərləri. Bakı: “Şərq– Qərb”, 2005, 464 səh.
4. Osmanlı, Vəli. Azərbaycan romantizmi. I cild. Bakı: “Elm” 2010, 463 səh.


***Seiran Gaibov***

## The challenge against ignorance and illiteracy in the poetry of Mahammad Hadi

### *Summary*


Mohammad Hadi is known as one the most important representatives of romanticism movement in Azerbaijan literature and there are lots of considerable approaches following the science, education, and enlightenment in his works like other philosophers of his periods.

Hadi mentioned that the nation would not get rid of inertia and misery without education. He also emphasized that ignorance was a terrible case for the human and whole society and underlined the power of education on the prosperity of humanity.

The approaches to science and education were not the same in the society of Mahammad Hadi's period, we know from the history of Azerbaijan literature and pedagogy how enlightened and intellectual people of the time faced problems.

Hadi calmly expressed the insufficiencies of society. Didacticism was the main part of his method. Hadi did not ignore the values of the society he lived in, but he portrayed the Azerbaijan reality in all its nudity. Regarding the society's Muslim population, Hadi used citations from Islam religion. Mohammad Hadi criticised religious clergymen who misguided people keeping them far from education and emphasized Europe's dominance thanks to the successes in science and industry.

Hadi particularly advocated for women's education. According to the poet, women's education is equal to the healing of the nation and the treatment of its soul.

Regarding the importance of education in the nation's life, Hadi notes that the establishment of new schools and higher education institutions will save the nation from ignorance and illiteracy.

***Сейран Кайыбов***

**Призыв против невежества и неграмотности в стихах Мухамеда Хади**

***Р ез ю м е***

Выдающийся поэт Мухаммед Хади, известный в азербайджанской литературе, как один из главных представителей романтического движения, как и многие другие мыслители своего времени, уделял особое внимание науке, просвещению и образованию. Хади писал, что без просвещения нация никак не избавится от лени и унижений. Он отмечал, что невежество – ужасное состояние и для человека, и для общества, в целом, и что достижения в образовании принесут человеку больше счастья. Из истории азербайджанской педагогической мысли, а также из истории нашей литературы известно, что во времена Мухамеда Хади общественное мнение о науке и образовании было неоднозначным, просвещённые интеллектуалы того времени сталкивались с множеством препятствий в этом направлении.

В своих стихах Хади легко выражает недостатки, существующие в обществе. В его стиле доминирует дидактика. В своих стихах поэт, открыто принимающий существующую реальность азербайджанского общества, описывает жизнь того времени такой, какая она есть, не игнорируя ценности общества. Пропаганда науки и культуры занимает ключевое место в его творчестве. Поскольку общество, к которому обращается Хади, состояло в основном из мусульман (в основном мусульманское), он объясняет важность науки, просвещения и образования, цитируя ислам. Критикуя духовенство, которое время от времени неверно истолковывало религиозные знания и в результате отталкивало (отдаляло) людей от науки и образования, Хади объясняет своему народу, что европейцы правят миром благодаря своим достижениям в науке и промышленности. Хади особенно был сторонником женского образования. По словам поэта, образование женщины равно исцелению нации, исцелению её духа.

Говоря о значении учебных заведений в жизни нации, Хади отметил, что с открытием новых школ и высших учебных заведений, народ избавится от невежества и неграмотности.